# ORTA MƏKTƏBDƏ ŞAGİRDLƏRDƏ KİMYA BİLİKLƏRİNİ TƏTBİQ ETMƏK BACARIQLARININ FORMALAŞMASINDA MƏKTƏB KİMYA KABİNETİNİN ROLU

**A.C.Quliyev, L.M.Əbdürəhimova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir elmi-texniki tərəqqi dövründə kimya istehsalatı təkmilləşir, kimyanın xalq təsərrüfatının müxtəlif sahələrinə tətbiqi genişlənir. Bununla əlaqədar olaraq məktəb kimya kursunun məzmunu və tədrisi prosesinin təşkilində əsaslı dəyişiklik aparmaq zərurəti yaranmışdır. Məktəb kimya kursunun məzmununda aparılan əsas dəyişiklik nəzəriyyə ilə praktikanın vəhdətinin yüksəldilməsi və peşəyönümlü istiqamətin təkmilləddirilməsində ifadə olunur. Ölkəmizdə qəbul olunan Dövlət təhsil standartlarının (DTS) tələblərinə uyğun olaraq ümumtəhsil məktəblərinin müdavimləri yalnız fənləri bilmələri deyil, həm də həmin bilikləri praktik fəaliyyətdə tətbiq etməyi bacarmalıdırlar. Bu vəzifənin yerinə yetirilməsi təlim-tərbiyə prosesini təkmilləşdirmədən mümkün deyil. Təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi və onun optimallaşdırılması üçün birinci növbədə təlimin məzmunu, metodları, təşkili formaları və vasitələri təkmilləşməlidir. Müasir təlim vasitələri təhsilin məzmununun daha dərindən açılmasına, yeni metodik üsullardan istifadə etməklə müəllim peşəsinin yüksəlməsinə şərait yaradır.

Hazırda kimya təhsilinin qarşısında qoyulan əsas vəzifə yalnız şagirdlərin mü-əyyən bacarıq və vərdişlərə şərait yaradan dərketmə fəallıqlarının yüksəldilməsini deyil, həm də onlara kimya kabinetində sərbəst işləməyi, müşahidə aparmağı və tədqiqatın nəticələrini analiz etməyi öyrətməyi tələb edir. Şagirdlər malik olduqları biliklərə istinad etməklə müxtəlif kimyəvi faktları izah etmək, maddələrin quruluşu əsasında onları xarakterizə etməyi bacarmalıdırlar. Bununla əlaqədar olaraq məktəb kimya fənlərinin öyrədilməsində kimya eksperimentinin rolu yüksəldilməlidir.

Kimya eksperimentinin aparılmasına dərs saatının 40 %-i sərf olunur. 7-11-ci siniflərin tədris proqramında dərslərin 70% -nin kimya eksperimentinin iştirakı ilə aparılması nəzərdə tutulmuşdur. Belə dərslərdə şagirdlərdə qarşıya çıxan problemləri həlletmək, yaradıcı yanaşmaq tərbiyə olunur, onlarda təfəkkür inkişaf edir. Bununla yanaşı şagirdlərin elmi laboratoriyalara, kimya sənayesi müəssisələrinə sistematik olaraq ekskursiyalarının təşkilinə xüsusi əhəmiyyət verilməldir.

Məktəb kimya kabineti müasir tədris avadanlıları, xüsusilə də təlimin yeni texniki vasitələri ilə təmin olunmalıdır. Komputer və başqa müasir texniki

vasitələr məktəb həyatına möhkəm daxil edilməlidir. Müəllim kimya dərslərində görüntülü-səsli vasitələrdən bu və ya digər anlayışların dərk olunması üçün istifadə etməlidir. Lakin,belə vasitələr eksperimentin yaratdığı effekti əvəz edə bilməz. Bununla belə, ekran vasitələri müəllimin sözünün illüstrasiyası və həmçinin mühüm məlimat mənbəyi və problemli təlim yaratmaq üçün başlanğıcdır. Hazırda şəhər məktəblərdə müasir texniki vasitələrdən geniş istifadə olunur. Kimya kabinetində şagirdlər müxtəlif avadanlıqlardan istifadə etməklə sadə cihazlar quraşdırır, maddələrlə təcrübələr aparırlar. Onlar həmçinin müəllimin nümayiş etdirdiyi təcrübələri müşa-hidə edir, müxtəlif kimyəvi reaksiyaların getdiyi şəraiti öyrənirlər.

Beləliklə, müasir tədris avadanlıqları məktəbin yeni kimya kurslarının məzmununa uyğun olmalıdır. Tədris avadanlıqlarının tərkibi kimya kursunun məzmunu ilə təyin olunur. Tədris avadanlıqları və texniki vasitələrin saxlanılması, onlardan dərslərdə istifadə olunması üçün müasir tələblərə uyğun məktəb kimya kabinetinin olması zəruridir.

Məktəb kimya kabineti kimya dərslərinin aparılması, fənnə dair sinif-dənxaric işin təşkili, həmçinin kimya proqramında nəzərdə tutulan digər tədbirlərin keçirilməsi üçün xüsusi təchiz olunmuş otaqdır. Didaktik tələblərə görə kimya kabineti məktəb kimya fənninin xüsusiyyətindən irəli gələn bütün təlim-tərbiyə işlərinin aparılmasına imkan verən zəruri tədris avadanlıqları ilə təmin olunmalıdır.

Kimya kabineti iki otaqdan ibarət olur. Kimya dərsləri və digər məşğələlər apa-rılan sinif otağı, kimya qabları, reaktivlər, didaktik materiallar və digər təlim vasitələri saxlanılan laborant otağı. Laborant otağında müəllim və ya laborant məşğələ üçün zəruri olan vasitələri hazırlayır. 70 $m^2$ -ə yaxın sahəsi olan sinif otağında laboratoriya təcrübələri və praktik işlərin aparılması üçün sanitar-gigiyenik tələblər və təhlükəsizlik texnikası qaydalarına əməl olunmaqla ikiyerli şagird stolları düzülməlidir.18 $m^2$ sahəsi olan laborant otağında reaktivlər, qablar və digər laboratoriya avadanlıqları saxlanan şkaflar və seyf olmalıdır. Laborant otağının biri sinif otağına, digəri koridora açılan iki qapısı olur.

**Məktəb kimya kabinetinin təlim-tərbiyə vəzifələri:**

* kimya dərslərinin və sinifdənxaric işlərin təşkili və aparılması;

* şagirdlərin təfəkkür fəaliyyətinin aktivləşdirilməsi;

*kimya fənninə maraq oyatmaq, dərsin praktik istiqamətini yüksəltmək, tədqiqatçılıq vərdişlərinin aşılanması;

* sorğu materiallarından istifadə etmək, öyrənilən materialı analiz etmək və sistemləşdirməyi bacarmaq vərdişləri formalaşdırmaq.

**Məktəb kimya kabinetinə verilən əsas tələblər:**

1. Elmi-metorik: kimyanın məzmunu, didaktik, psixoloji və tərbiyə nəzəriyyəsinə uyğunluğu;

2. Gigiyenik, təhlükəsizlik texnikası: əməyin elmi təşkili, müəllim və şagirdlərin sağlamlığının qorunması;

3. Dövlət standartına və texniki şəraitə uyğunluğu: laboratoriya otağının tədris avadanlıqlarından yüksək səviyyədə istifadə etməklə təlim-tərbiyə prosesini həyata keçirməyə imkan verən vəziyyətdə olması.

**Məktəbin rəhbərliyi və kimya müəlliminin vəzifələri:**

* kabineti avadanlıq və kimya təliminin tədris-metodik vasitələri ilə təchizi;

* avadanlıq və təlimin tədris-metodik vasitələrin kimya kabinetinə uyğunluğu;

* kabinetin kimya dərslikləri, didaktik materiallar və paylama materialları ilə təmin olunması;

* kabinetdə didaktik materiallara (şagirdlərin ev tapşırıqlarının icrası, məsələ həlli, referatların tərtibi, imtahana hazırlıq, qiymətləndirmə meyarları və s.) dair təlimatların olması;

* kabinetdə sanitar-gigiyenik və təhlükəsizlik texnikası qaydalarına əməl olunması.

**Kimya kabinetinin təlim vasitələri:**

Şagirdlərin təlim-tərbiyə və inkişafının vasitələri, təhsil müəssisəsi qarşısında qoyulan vəzifələrin icrası üçün müəllim və şagirdlərin təlim-tərbiyə prosesində istifadə etdikləri maddi obyektlər sistemidir. Hazırda məktəb avadanlıqlarının növlərinin sayı sürətlə artır. Buna görə də onları elmi əsaslandırılmış təsnifini vermək zərurəti yaranmışdır. Məktəbin kimya kabinetinin avadanlıqları tədris avadanlığı, mebel, həmçinin tədris prosesinin elmi təşkili və idarə edilməsi üçün istifadə olunan xüsusi avadanlıqlardan ibarətdir. Məktəbin kimya kabinetinin avadanlıqlarının əsas tərkib hissəsi tədris avadanlığıdır.

Kimya təlimi vasitələri əsasən üç qrupa bölünür:

1.Yalnız müəllimin istifadə edəcəyi vasitələr. Bunlara dərsə hazırlaşmaq və sinifdənxaric tədbirləri aparmaq üçün istifadə olunan tədris-metodik ədəbiyyatlar, cihazlar, reaktivlər və avadanlıqlar aiddir.

2. Dərsliklər, dərs vəsaitləri, oxu kitabları və şagirdlər üçün kütləvi ədəbiyyatlar.

3. Kimya təliminin xüsusi didaktik vasitələri. Bunlara aşağıdakılar aiddir:

* təbii obyektlər, maddələr, kimyəvi reaktivlər, materiallar, məhlular, qarışıqlar, kolleksiyalar və s.;

* cihazlar, kimya qabları, laboratoriya avadanlıqları;

* atom və molekulların, kristal qəfəslərinin, kimya istehsalatının və s. tədris modelləri;

*kağız mənşəli təlim vasitələri (cədvəllər, sxemlər, şəkillər və s.);

Məktəbin kimya avadanlığının xüsusi qrupunu müxtəlif texniki vasitələr təşkil edir. Bu qrupa aşağıdakılar aiddir:

* diopozitivlər, diafilmlər, səsyazıları, kinofilmlər (fotoaparatlar, filmoskoplar, kodoskoplar, maqnitafonlar və s.;

* müasir informasiya vasitələri (kompyuter, mültimediya qurğuları, internet, interaktiv lövhə və s.).

Məktəbin kimya kabinetinin reaktiv və materialları 7-11-ci siniflərin proqramları əsasında müəyyən olunur. Kimyəvi reaktivlər qeyri-üzvi (metallar, qeyri-metallar, onların oksidləri, əsaslar, turşular, duzlar və s.) və üzvi (spirtlər, aldehidlər, ketonlar, karbon turşuları, karbohidratlar, indikatorlar və s.) maddələrdən ibarət olur. Kimyəvi reaktivlərin keyfiyyəti Dövlət standartları ilə müəyyən olunur. Kimyəvi reaktivlərin keyfiyyətini xarakterizə edən texniki göstəricilər bunlardır:

1) əsas maddənin miqdarı, 2) qarışıqların miqdarı, 3) rütubətliliyi. Bu göstəricilərə görə kimyəvi reaktivlər aşağıdakı kimi təsnif olunur (cədvəl 1).

Məktəbin kimya kabinetində təbii materialların xüsusi növü olan minerallar və dağ süxurlarından ibarət kolleksiyalar mühüm təlim-tərbiyə əhəmiyyətinə malikdir. Belə ki, şagirdlər «mineral» və «dağ süxuru» anlayışlarını fərqləndirməyi öyrənir, geokimya, mineralogiya haqqında təsəvvürə malik olurlar. Metallar və qeyri-metalların təbiətdə tapılan minerallarının nümünələri xüsusi qutularada kolleksiya və paylama materialı formasında saxlanılır.

Cədvəl 1.

Kimyəvi reaktivləin təmizlik dərəcəsinə görə təsnifatı

| Adı | Şərti işarəsi | Tərkibi |
|---|---|---|
| Təmiz | « t » | Əsas maddənin miqdarı 98%, qarışıqlar 0,01- 0,5 % |
| Analiz üçün təmiz | « aüt » | Əsas maddənin miqdarı 99% |
| Kimyəvi təmiz | « kt » | Əsas maddənin miqdarı 99%-dən çox, qaışıqlar 0,001 - 0,00001 % . |
| Xüsusi təmiz | « xt » | Qarışıqların miqdar. Çox az olur 0,00001-0,0000000001% |

Məktəbin kimya kabinetində əsasən «təmiz» (t) maddə növündən istifadə olunur. Təmizlik dərəcəsinə görə «analiz üçün təmiz» (aüt) və «kimyəvi təmiz» (kt) kimi təsnif olunan maddələrdən yalnız fakultativ məşğələlərdə istifadə etmək olar. Məktəbin kimya kabinetinə «xüsusi təmiz » (xt) təsnif olunan maddələrin alınması tələb olunmur.

**Məktəbin kimya kabinetində saxlanılan kimya qablarıvə cihazlar:**

Məktəbin kimya kabinetində saxlanılan kimya qabları, kimyəvi maddələrlə təcrübələrin aparılması və maddələrin saxlanmasına xidmət edir. Təcrübələrin aparılmasında istifadə olunan kimya qablarını iki qrupa bölmək olar:

* şagirdlərin apardıqları təcrübələrdə işlədilən qablar;
* müəllimin apardığı nümayiş təcrübələrində işlədilən qablar.

Kimya qabları hazırlandıqları materiala görə aşağıdakı kimi təsnif olunur:

* şüşə qablar (adi və xüsusi şüşədən hazırlanmış qablar);
* çini qablar;
* odadavamlı materiallardan və metallardan hazırlanmış qablar

Məktəbin kimya kabinetində istifadə olunan cihazlar üç qrupa bölünür:

1) ölçü cihazları; 2) qızdırıcı cihazlar; 3) təcrübələri aparmaq üçün istifadə olunan xüsusi cihazlar.

**Kimya kabinetində reaktivlərin saxlanmasına verilən tələblər:**

1. Kimya kabinetinin sinif otağı və laborant otağında reaktivlərin yerləşdirilməsi və saxlanması təhlükəsizlik texnikasının xüsusi qaydalarına əməl olunmaqla həyata keçirilir.
2. Partlayıcı və asanalışan maddələrin məktəb kimya kabinetinə gətirilməsi qadağan olunur.
3. Kimyəvi maddələr xassələrinə görə qruplaşdırılmalı və saxlanma şəraiti müəyyən olunmalıdır.

Məktəb kimya kursunun tədrisində istifadə olunan maddələri xassələrinə və kimya kabinetində saxlanma şəraiinə görə altı qrupa bölmək olar (cədvəl 2).

Cədvəl 2.

Kimyəvi maddələrin qrupları və kimya kabinetində saxlanma şəraiti

| Qrup | Maddələrin ümumi xassələri | Qruplara daxil olan maddələr | Saxlanma şəraiti |
|---|---|---|---|
| 1 | Su ilə qarşılıqı təsirdə olduqda tez alışan qaz ayrılır | Litium, natrium, maqnezium, kalsium. kalsium-karbid | Laborant otağında qapısı kilidli şkafda |
| 2 | Tezalışan mayelər | Aseton, benzol, toluol, ksilol, dietil efiri, etil spirti, izobutil spirti və s. | Laborant otağında metal şkafda |
| 3 | Tezalışan bərk maddələr | Kükürd, parafin, qırmızı fosfor, üzvi turşular və s. | Laborant otağında qapısı kilidli şkafda |
| 4 | Alışqan, oksidləş-dirici maddələr | Kalium permanqanat. Nitrat turşusu (d=1,42 q/m*l*), manqan (IV) oksid, natriumun, kaliumun və ammoniumun nitratları, hidrogen peroksid | Laborant otağında 2 -ci və 3-cü qrupdan ayrı şkafda |
| 5 | Yüksək fizioloji aktivliyə malik olan maddələr | Yod, brom, kalium-hidroksid, natrium-hidroksid, kalsium oksid, barium-oksid, ammonium-bixromat və s. | Laborant otağında seyfdə və ya metal qabda |
| 6 | Aztəhlükəli və ya praktiki təhlükəsiz maddələr | Natrium-xlorid, ammonium-xlorid. qlükoza, saxaroza, sink. dəmir, kalium-yodid, natrium-asetat və s. | Sinif otağında şkafda və ya laborant otağında 1-ci qrupla birlikdə |

**Kimya kabinetində istifadə olunan təlimin texniki vasitələrinə verilən didaktik tələblər:**

* məlumat mənbəyidir;

* təlim materialının tədrisi formasını səmərəli edir;

* əyanilik dərəcəsini yüksəldir, anlayışlar və hadisələrin dərk olunmasını asanlaşdırır;

* şagirdlərin təfəkkür fəaliyyətini genişləndirir, onları biliyə həvəsləndirir;

* şagirdlərin dərk edə bilmədikləri təlim materialını asanlaşdırır, dərketmə fəaliy-yətini aktivləşdirir, materialın şüurlu mənimsənilməsinə şərait yaradır;

* təlim materiallarının təkrarlanması, sistemləşdirilməsi, ümumiləşdirilməsi və biliyə nəzarət vasitəsidir;

* nəzəriyyəni praktika ilə illüstrasiya edir;

* daha effektli forma və metodlardan istifadə olunmasına şərait yaradır, tədris vaxtına qənaət olunur.

Təlimin texniki vasitələrindən istifadənin göstərilən bütün üstünlüklərinə baxmayaraq, onun nöqsanları da mövcuddur. Bunlara aşağıdakılar aiddir:

* şəxsiyyətlərarası ünsiyətin zəifləməsi;

* şifahi və yazılı nitqin rolunun azalması. Çünki yeni texnologiyada səs və təsvir üstünlüyə malikdir;

* sərbəst yaradıcı qabiliyyətin zəifləməsi.

Məktəbdə kimya təliminin xüsusiyyəti müəllim və şagirdlərin kimya kabinetində təlim vasitəsi kimi təbii materiallardan istifadə etməklə kimya eksperimentinin aşağıda göstərilən əsas növlərinə dair təcrübələr aparmalarını tələb edir:

1. Müəllim və ya şagirdlərin apardığı nümayiş eksperimentləri.

2. Yeni mövzunun izahı prosesində şagirdlərin müəllimin rəhbərliyi ilə apardıqları laboratoriya işləri.

3. Şagirdlərin proqramda nəzərdə tutulmuş bütün dərs müddətində apardıqları praktik işlər.

4. Şagirdlərin bilik, bacarıq və vərdişlərinə nəzarət məqsədilə fərdi apardıqları təcrübələr.

5. Şagirdlərin kimya dərnəyində elmi konfranslar, kimya olimpiadası və s. hazırlaşmaq məqsədi ilə apardıqları tədris və tədqiqat xarakterli eksperimentlər.

6. Müəllim, laborant və bəzi hazırlıqlı şagirdlərin iştirakı ilə dərs və sinifdənxaric tədbirlər üçün təcrübələri hazırlamaq məqsədilə aparılan kimya eksperimentləri.

Göstərilən təcrübələrin kimya kabinetində aparılması prosesində müəllim və şagirdlərin sağlamlığına təsir edə biləcək müəyyən dərəcədə zəhərli, tezalışan, partlayıcı maddələrin əmələ gəldiyini nəzərə alaraq təhlükəsizlik texnikası qaydalarına ciddi əməl olunmalıdır.

Kimya kabinetində istifadə olunan əyani vəsaitlər və texniki vasitələrdən səmərəli istifadə şagirdlərdə elmə maraq oyadır, məntiqi təfəkkürü inkişaf etdirir, müstəqil işləmək vərdişi formalaşır, dünyagörüşü genişlənir, təlimi həyata yaxınlaşdırır.

**Kimya kabinetində təhlükəsizlik texnikasının ümumi qaydaları:**

1. Praktik və laboratoriya işləri yalnız müəlimin iştirakı ilı aparılmalıdır.

2. Dərsdə yalnız tədris proqramında nəzərdə tutulan eksperiment aparılmalıdır.

3. Kimya kabinetinin yaxşı görünən yerində təhlükəsizlik texnikasının təlimatı asılmalıdır.

4. Təcrübə üçün istifadə olunan cihazın yararlı olması əvvəlcədən yoxlanmalıdır.

5. Şagirdlərin aparması üçün nəzərdə tutulan təcrübələri müəllim əvvəlcədən yoxlamalıdır.

6. Zəhərli maddələrlə təcrübələr sorucu şkafda aparılmalıdır.

Kimya eksperimentinə başlamazdan əvvəl təhlükəsizlik tədbirləri.

Laboratoriya təcrübələrinə, praktik işlər və ya kimya eksperimentinin digər növlərini aparmağa başlamazdan əvvəl şagirdlər bilməlidir:

* laboratoriya təcrübələri, praktik işlər və ya kimya eksperimentinin digər növlərinin məzmununu, təhlükəsiz aparılma ardıcıllığını öyrənmək;

* müəllimin reaktivlərlə, qızdırıcı cihazlarla, kimya qablarına reaktivlərin doldurulması və s. təhlükəsiz davranmağa dair tapşırıqlarını diqqətlə dinləməli və öyrənməlidir;

* iş yerini eksperiment üçün hazırlamalı, artıq olan əşyaları götürməli;

* laboratoriya avadanlığı, cihazlar və qabların işə yararlı olmasını yoxlamalı.

Kimya eksperimenti aparılarkən təhlükəsizlik tədbirləri.

Laboratoriya təcrübələri, praktik işlər və ya kimya eksperimentinin digər növlə-rini apararkən şagirdlər bilməlidir:

* bərk maddələr və məhlullarla təhlükəsiz işləməyə dair müəllimin göstərişlərinə əməl etməyi;

* işləyən qızdırıcı cihazların nəzarətsiz qalmamasını;

* avadanlıqların işində baş verən nasazlıqlar haqqında laboranta və ya müəllimə məlumat verməyi, nasazlıqları müstəqil aradan qaldırmağa çalışmamağı;

* içərisində reaksiya üçün götürülmüş maddələr olan sınaq şüşəsini qızdırarkən onun ağzını yoldaşlarına və ya özünə tərəf saxlamamağı;

* istənilən maddənin dadına baxmamağı, kabinetdə qida qəbul etməməyi.

İşin sonunda təhlükəsizlik tədbirləri

* spirt lampasını xüsusi qapaqla söndürməli, əl ilə və ya üfürməklə

söndürmək olmaz;

* iş yerini səliqəyə salmaq, bütün avadanlıqları, cihaz və reaktivləri laborant və ya müəllimə vermək;

* otağın havasını dəyişməli və əlləri sabunla yumalı.

Kimyadan nümayiş eksperimenti aparılarkən təhlükəsizlik tədbirləri.

Nümayiş eksperimenti hazırlanarkən müəllim nümayişin aparılmasının bütün mərhələlərini yaxşı hazırlamalı və aşağıdakı tədbirləri həyata keçirməlidir:

* təcrübə aparılacaq qurğunun işə yararlı olmasını yoölamalı;

* təcrübə üçün lazım olan reaktivləri hazırlamalı;

* müəllim stolundan nümayiş təcrübələrinə aid olmayan əşyaları götürməli;

* əgər müəllim hər hansı nümayiş təcrübəsini birinci dəfə aparırsa onda onu şagirdlərin iştirakı olmadan laborantla birlikdə aparmaqla nəticənin düzgün alınmasını yoxlamalıdır;

* gurultulu səs, parlaq işıq və s. hadisələrlə müşayiət olunan təcrübələri apararkən müəllim şagirdlərdə qorxunun yaranmaması üçün qabaqcadan onlara xəbərdarlıq edir;

* məhlulları hazırlayarkən sıxlığı böyük olan mayeni sıxlığı kiçik olan mayeyə tökmək lazımdır;

* şagirdlərin sağlamlığı üçün təhlükəli olan maddələrlə təcrübəni yalnız müəllim özü aparmalıdır.

**Məktəbin kimya kabinetinin apteki.**

Kimya kabinetinin aptekində kimya eksperimentinin aparılması prosesində baş vermiş bədbəxt hadisələr zamanı müəllim, laborant və şagirdlərə ilk tibbi yardım göstərmək üçün zəruri olan dərman maddələri, tibbi ləvazımatlar saxlanır. Aptekin dərman maddələri və tibbi ləvazımatlarla təchizi kimya müəllimimnin və ya kabinə müdirinin sifarişi əsasında təhsil müəssisəsinin rəhbərliyi tərəfindən həyata kemirilir. İl ərzində aptekdə olan preparatların saxlanma müdəti sistemli olaraq yoxlanır, köhnələri təzəlri ilə əvəz olunur.

Aptekdə ilk tibbi yardım üçün saxlanılan preparatlar və ləvazımatlar:

1. Steril bint, 2 ədəd.
2. Steril olmayan bint, 2 ədəd.
3. Hiqroskopik steril pambıq, 10 q.
4. Pinset, 1 ədəd.
5. Kley BF-6, mikroyaraları işləmək üçün, 25-50 ml.
6. Yodun spirtdə məhlulu, yaranın ətrafını işləmək üçün, 25-60 ml.
7. Hidrogen-peroksidin 3 % -li məhlulu, qanaxmanı dayandıran vasitə kimi, 50 ml.
8. Aktivləşdirilmiş kömür, dənəvər, toz və ya tablet halında (Karbolen). Zəhərlənmədə mədə yuylmamış və yuulduqdan sonra 4-6 tablet və ya bir xörək qaşığı sıyıq halında verilir.

9. Ammonyakın suda 10 % -li məhlulu. Huşu itirdikdə və brom buxarları ilə zəhərləndikdə pambıqdan iylətmək.

10. Natrium-sulfasilin (Albusid) 30 % -li məhlulu, 20-30 ml. Yuduqdan sonra gözə 2-3 damcı damızdırmaq.Otaq temperaturunda 3 həftədən çox saxlanıla bilər.

11. Etil spirti, 50-100 ml. Yanıqları və dəridən bromu təmizləmək üçün.

12. Qliserin, 30-50 ml. Yanıqdan sonra ağrı hisslərini götürmək üçün.

13. Natrium-karbonatın 2 % -li məhlulu, 200-250 ml. Turşu ilə yanan dərini yumaq üçün işlədilir.

14. Maqnezium oksid, 20 q.

15. Limon və ya borat turşusunun suda 2 % -li məhlulu, 200-250 ml. Gözə vəya dəriyə qələvi düşdukdə yumaq üçün işlədilir.

16. Pipet, 3 ədəd. Gözə albusid damdırmaq üçün işlədilir.

17. Rezin sıxıcı 2 ədəd. Qanaxmanı dayandırmaq üçün işlədilir.

18. Qayçı, 1 ədəd.

19. Kalium permanqanat, 20 q.

20. stəkan, 2 ədəd.

**Kimya kabinetində müxtəlif növ zəhərlənmələr və zədələnmələrdə göstərilən ilk yardımın təlimatı:**

1. Turşular ilə zəhərlənmə: 4-5 stəkan ılıq su içib, qusmaq. Sonra maqnezium-oksidin suda asılqanını içmək və qusmaq. Bundan sonra mədəni ılıq su ilə iki dəfə yumaq. Daxilə qatı turşu düşdükdə və huşu itirdikdə süni qusma yaratmaq, karbonat və ya hidrokarbonatlardan istifarə etmək qadğandır. Belə halda həkim çağırmaq lazımdır.

2. Qələvilər ilə zəhərlənmə: 4-5 stəkan ılıq su içib, qusmaq. Sonra 2 % -li sirkə rşusunun suda məhlulundan həmin həcmdə içmək və qusmaq. Bundan sonra mədəni isti su ilə 2 dəfə yumaq.

3. Brom buxarları ilə zəhərlənmə: pambıqdan naaşatır spirtini (ammonyakın suda kütlə payı 10%-dən çox olmayan məhlulu) iylətmək. Sonra burun və boğazın selikli qişasın natrium-hidrokarbonatın suda 2 %- li məhlulu ilə yumalı.

4. Qazlarla zəhərlənmə: təmiz hava, ağır hallarda oksigen.

5. Yanıqlar: Bütün yanıq növlərində yanan dəri sahəsini piylə işləmək qadağandır. Həmçinin boyayıcı madələr (kaliym-permanqanat, yod məhlulu və s.) tətbiq etmək də qadağan olunur. Birinci dərəcəli yanıqlar etil sperti ilə işlənir, və quru sarğı qoyulur. Bütün digər hallarda yanıq yeri soyudulur və quru steril sarğı qoyulur.

6. Kəsiklər və zədələnmələr:

* qanaxmanı dayandırmalı (damarın sıxılması);

* yaranının daxilinə toxunmadan kənarları yodun spirtdə məhlulu ilə təmizlənir və tibb məntəqəsinə müraciət olunur;

* zədələnən nahiyyəyə sıxıcı sarğı qoyulur və soyudulur, təcili yardım çıxarılır;

* gözə düşmüş yad cisim yaş pambıq və ya yaş tənziflə çıxarılır. Sonra göz 7-10 dəqiqə su axını ilə yuyulur. Yumaq üçün çaynikdən və ya laboratoriya yuyucusundan istifadə etmək olar;

* gözə yeyici mayelər düşdükdə madının təbiətindən asılı olaraq borat turşusu və ya natrium-hidrokarbonat məhlulu ilə yuyulur, Sonra təmiz su ilə yuyub, kirpiklərin altına 2-3 damcı 30%-li albusid məhlulu daxil edilir və zərərçəkən tibb məntəqəsinə göndərilir;

**Kimya kabinetində yanğın təhlükəsizliyi.**

Kimya dərslərində təcrübələrin çoxu qızdırılmaqla aparılır. Qızdırıcı cihazlardan istifadə edərkən yanğının baş verməməsi üçün təhlükəsizlik texnikası qaydalarına əməl etmək zəruridir. Şagirdlər təcrübə apardıqda qızdırmaq üçün spirt lampasından və ya yanıcı quru həblərdən istifadə olunur. Belə qızdırıcı vasitələrdən istifadə etmək üçün müəllim şagirdləri hənin vasitələri yandırmaq və söndürmək qaydalarına dair təlimatlandırır. Spirt lampası və həb kibritlə yandırılır və qızdırma dayandırıldıqdan sonra hər ikisi spirt lampasının qapağı ilə örtülməklə söndürülür.

Ümumtəhsil məktəblərinin kimya kabinetlərində yanğın təhlükəsizliyinin təşkili təhlükəsizlik texnikasının qaydalarına əsasən həyata keçirilir. Zəruri olan minimum vasıtə kimi kabinetdə və laborant otağında yanğınsöndürən cihaz qoyulur. Bundan əlavə ağzı qapaqla örtülən qutularda qum saxlanır.

## İstifadə edilmiş ədəbiyyat:

1.А.А.Грабецкий,Е.С.Назарова. Кабинет химии.Москва «Просвещение» 1980.
2.Л.С.Зазнобина.Экранные пособия на уроках химии. Москва «Просвещение» 1981.
3. П.И. Воскресенский. Техника лабораторных работ. Издательство «Химия» Ленинградское отделение, 1970.
4.WWW. Himlabo.ru/chemistry/ laboratornoe-oborudovanie.
5.WWW.pep. Balakovoschool 12. Edusite.ru/p12aal.html.

*А.Д.Кулиев, Л.М. Абдурахимова*

**Роль школьного химического кабинета в формировании у учащихся способности применять химические знания в средней школе**

**РЕЗЮМЕ**

В статье даются основные требования к современному школьному кабинету химии, которые способны к проведению всех видов школьного химического эксперимента в средней школе. Показаны система средств обучения и использования их в проведении химического эксперимента в рамках школьного курса химии. Особое внимание уделено технике безопасности перед началом, во время и по окончании работы в химическом кабинете школы.

Охарактеризованы требования к безопасности при размещении и хранении реактивов в кабинете химии. Показано, что для оказания мер первой медицинской помощи при различного рода отравлениях и повраждениях организма в кабинете химии, необходимо иметь укомплектованную медицинскую аптечку, согласно перечню описаниых медикоментов.

*A.D.Guliyev, L.M.Abdurahimova*

**The role of school chemical cabinet in the formation of pupils chemical knowledge in medium school**

**SUMMARY**

Key requirements to modern school chemical chair, which is able to conduct all kinds of school chemical experiments in secondary school have been indicated in the article. System of learning tools and their use in conduction of chemical experiment within the framework of school course of chemistry, has been shown here. Special attention was given to technical security before, during and after conclusion of work in school chemical chair.

Requirements toward security during placement and reservation of reagents in chemical chair have been featured here. It has been indicated that, for conduction of first medical aid during various kinds of intoxication and damage of body in chemical chair, there should be set of medical pharmacy, in accordance with list of prescribed medications.

**Açar sözlər:** məktəb kimya kabineti, tədris avadanlığı, təlimin texniki vasitələri, kimyəvi reaktivlər

**Ключевые слова:** школьный химический кабинет, учебное оборудование, технические средства обучения, химические реактивы

**Key words:** school chemical chair, academic devices, technical learning tools, chemical reagents.